# Üçtərəfli Bəyanat erməni işğalına son qoydu

**10 noyabr tarixli üçtərəfli Bəyanat erməni işğalına son qoydu. Ermənistan hərbi kapitulyasiya aktını imzalayaraq, dünya ictimaiyyəti qarşısında işğalçı olduğunu qəbul etməklə bərabər, Azərbaycanın regionda sülhün və əmin-amanlığın təminatçısı olduğunu təsdiqlədi.**



Düz 30 il idi ki, heç bir beynəlxalq təşkilat erməni işğalı və erməni terroru ilə bağlı obyektiv qərar səsləndirməyib. Bu gün rəsmi İrəvanın 30 ildir işğalçı dövlət olduğunu etiraf etməsinə rəğmən, heç bir beynəlxalq təşkilat Ermənistana qarşı sanksiya tətbiq etməyə çağırış belə etmir. Baxmayaraq ki, Azərbaycan 10 noyabr tarixli bəyanatla, sadəcə, əzəli torpaqlarını işğaldan təmizləmədi, eyni zamanda regionda sülh və əmin-amanlıq yaratdı.

Üçtərəfli Bəyanatla Azərbaycan BMT-nin 4 qətnaməsinin icra olunmasına rəsmi şəkildə nail oldu. Bütün dünya Azərbaycan xalqının birliyini gördü. Ölkəmizdə yaşayan bütün millətlərin, dini konfessiyaların nümayəndələri birləşib cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, böyük uğurdur. Eyni zamanda Azərbaycanda multikultural dəyərlərin çox əhəmiyyətli olmasının təzahürüdür. Azərbaycanın Müzəffər Ordusu, qətiyyətli iradəsi ilə, sözün əsl mənasında, tarixi salnamə yazan cənab Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşən xalq sübut etdi ki, həmrəyliyimiz böyük sərvətimiz, dəyərimizdir.

Üçtərəfli Bəyanat status-kvonu dəyişməyə müvəffəq oldu. Məhz üçtərəfli Bəyanatdan sonra Qarabağın status məsələsi öz həllini tapdı. İllərdir ATƏT-in Minsk qrupu bu məsələnin üzərində baş sındırdı, lakin bu istiqamətdə olan bütün fəaliyyətləri nəticəsiz oldu. Üçtərəfli Bəyanat döyüş meydanında Azərbaycanın qazandığı qələbəsinin masada öz təsdiqini tapması deməkdir. Bu sənəd hesab edirik ki, Azərbaycanın, ümumiyyətlə, beynəlxalq arenadakı ən böyük zəfəri kimi dəyərləndirilməlidir.

*Əsli KAZIMOVA,*
*Azərbaycan Sosial Rifah Partiyasının sədri*

Azərbaycan.- 2021.- 11 noyabr.- S.14